# Gedərəkən…

gedərkən sözümə cavab verмədin
gözünlə könlümü titərədirdin hey
onünçün bu vəhşi könlümlə sənin
baxışın doğmadır, sözlərin ögey

dilin deyirdi get, gözlərinsə gəl
utancaq baxışın gülürdü hərdən
axı hansısına inanım gözəl?
baş açım qoşduğun əfsanələrdən

səni misra  misra yaratmışam mən
dilimdə şeir tək qafiyələndin
səni ulduzlara mən atmışam, mən
amma alçaqlara sən özun əndin

ay suyun üstünə nur calar kimi
mən sənə sevgilim can çiləmişəm
gah şirinləşmişəm röyalar kimi
şeirimlə yuxunu ətirləmişəm

gedirəm sən artıq nə dinlə nə din
qoy könlüm uyusun sakit dəniz tək
sən ki qəm günümdə dada gəlmədin
indi də qoy rahat can versin ürək

unut! nağıllaşan sevədamı unut
eşqimdən əskilməz tək bircə teldə
üstünə uzanan yadlar əlin tut
mən də nağıl kimi dolaşım eldə

xallı qanadını aç, uç buradan
çiçəkdən çiçəyə qonan kəpənək
sarmaşıq sarılıb boynuma inan
saralıb solub o gördüyün çiçək

gedirəm sevgilim yanından sənin
gedirəm dərdiyim xatirələrlən
çıxıram dərd kimi canından sənin
dalımca nə sıxıl nədə kədərlən

qoy xatiratında şam kimi sönüm
batım ay batar tək aydın səhərdə
qoy yadından çixmiş mahnıya dönüm
itim nağıllarda, əfsanələrdə

tapşırdın payiza güllü baharı
söndürdün gecəmə nur saçan şamı
indı ki baş alıb gedirsən barı
qaytar urəyimi! qaytar sevdamı!

**Təbriz – yay 1363 Əsğər Fərdi**